# İki şəhid qardaşının nağılı...



## *Viləşdə Vətən Müharibəsi Qəhrəmanının xatirəsi əbədiləşdirilib*

**Masallının Viləş kəndində Azərbaycan Silahlı Qüvvələrinin giziri, Vətən müharibəsinin şəhidi İntiqam Bayram oğlu Əsgərlinin xatirəsi əbədiləşdirilib. Şəhid gizirin şərəfinə inşa olunan abidə-bulaq kompleksi 16 avqustda İntiqam Əsgərlinin doğum günündə istifadəyə verilib. Abidənin yaradılmasında kənd sakini, xeyriyyəçi Bəxtiyar Məmmədovun, vətənpərvər kənd sakinlərinin əməyi çox olub.**

Kəndin mərkəzində şəhidlərin xatirəsinə inşa edilən abidə kompleksinin önündə tədbir keçirilib. Açılış mərasimində Masallı Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov və aparatı, hüquq-mühafizə orqanlarının, idarə və təşkilatların rəhbərləri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin əməkdaşları, şəhid ailələrinin üzvləri, qazilər, kənd sakinləri, ziyalıları və media nümayəndələri iştirak ediblər.

Mərasimdə çıxış edən Masallı RİH başçısı Ş.Məmmədov geniş nitqində 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı tarixi Qələbədən söz açıb. Bildirib ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman hərbçilərimiz - əsgər və zabitlərimizin qanları, canları bahasına torpaqlarımızı işğaldan azad ediblər. Bu amal uğrunda şəhid olan qəhrəmanların xatirəsi xalqımızın qəlbində hər zaman yaşayacaq. Müstəqil Azərbaycan dövləti əbədi olacaq və həmin şəhidlər də ürəklərdə əbədi yaşayacaqlar.

Tədbirdə çıxış edən iki şəhid anası - İntiqamın və Aprel döüşlərinin cəsur döyüşçüsü Nurlanın anası Ziba xanım övladlarının keçdiyi döyüş yolundan, onlarda olan yüksək vətənpərvərlik hissindən, uşaqlıqda onlara söylədiyi nağıllardan danışıb. Qeyd edib ki, nağıl qəhrəmanlarının ömrü az olur. Övladları az ömür yaşasa da şərəflə yaşayıb, torpaq uğrunda şəhid olublar. Onların adı əbədi qalacaq tarixdə...

**Çıxış edənlər - Milli Məclisin deputatı Anar İsgəndərov, Qarabağ döyüşçüsü, qazi İslam Əzimov və başqaları 44 günlük Zəfər yürüşündə Azərbaycan Ordusunun qazandığı qələbədən söz açıblar. Bildirilib ki, qəhrəmanlıq dastanı yazan, cənnətdəki ilk ad gününü qeyd etdiyimiz İntiqam kimi igid oğullarımızın Vətən müharibəsində göstərdiyi şücaət Azərbaycan tarixində ən şanlı səhifə kimi qalacaq. Qeyd olunub ki, şəhidlərimizin xatirəsini yad etmək, onların ailələrinə hörmətlə yanaşmaq hər birimizin vətəndaşlıq borcudur.**

Şəhid anaları - ötən payız Ermənistan-Azərbaycan arasında 44 gün davam etmiş müharibədə həlak olan hərbçilərdən biri Xudayar Yusifzadənin anası İradə xanım, Bakıdan gələn, şəhid Sübhanın anası Mehriban Əbdürrəhmanova və başqaları ölkə rəhbəri İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür ediblər.

Sonra Viləşdən olan şəhidlərin, o cümlədən ad günü qeyd edilən Vətən Müharibəsi Qəhrəmanı İntiqam Əsgərlinin kənd qəbirstanlığındakı məzarları ziyarət olunub, ruhlarına dualar oxunub, məzarlarının üzərinə qərənfillər düzülüb.

Tədbir şəhid qardaşların böyüyüb boy atdığı evdə davam etdirilib.

**Masallı Dövlət Kollecinin tələbə və müəllim kollektivi tərəfindən şəhidlərin xatirəsinə aktyor Cəmaləddin Əliyevin həsr edilən "Ölümünə inanma" ədəbi-bədii kompozisiya nümayiş olunub.**

Tədbirdə Viləş kənd tam orta məktəbinin müəllim və şagirdləri də qəhrəmanlara, şəhidlərimizə, Vətənə həsr olunan şeirlər səsləndiriblər.

Qeyd edək ki, İntiqam Əsgərli 16 avqust 1990-cı ildə Masallı rayonunun Viləş kəndində anadan olub. 1997-2008-ci illərdə S.Hacıyev adına Viləş kənd tam orta məktəbində təhsil alıb.

Orta təhsilini aldıqdan sonra həqiqi hərbi xidmətə çağırılıb.

**2011-ci ildə Quru Qoşunlarının gizirlik kursunu bitirib, 2014-cü ildə Xüsusi Təyinatlı Qüvvələrin giziri kimi işə başlayıb. 2015-ci ildə Türkiyədə kəşfiyyat kursunu bitirib.**

2016-cı il aprelin 1-dən 2-nə ötər gecədən başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin bölmələri arasında cəbhənin




Tərtər və Cəbrayıl-Füzuli istiqamətlərində şiddətli döyüşlər başlamışdı. Tarixə Aprel döyüşləri olaraq yazılan hərbi əməliyyatlar zamanı İntiqam Əsgərli Xüsusi Təyinatlı Qüvvələrin giziri idi və Talış kəndi istiqamətində döyüşürdü. Gecə döyüşləri zamanı Tərtər rayonunun Talış kəndi istiqamətində olan əlverişli mövqelər, strateji nöqtələr, o cümlədən Talış yüksəkliyi Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunmuşdur. İntiqam Əsgərli özü ilə eyni rütbədə olan qardaşı, gizir Nurlan Əsgərli ilə birlikdə döyüşürdü. Qardaşı ilə birgə döyüş meydanından şəhidlərimizin, həmçinin, polkovnik Vüqar Yusifovun və polkovnik-leytenant Raqif Orucovun nəşini çıxarmışdır. 4 aprel 2016-cı ildə Talış kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qardaşı Nurlan Əsgərli şəhid olmuşdur və İntiqam Əsgərli onun nəşini özü döyüş meydanından çıxartmışdır. İntiqam Əsgərlinin dediklərindən: **"Komandirimizi (Raquf Orucovu) şəhid gördüyümüzdən ikimiz də çox sarsılmışdıq. Müəyyən bir məsafəyə qədər aparıb, arxada bizi gözləyən əsgərlərə təhvil verdik, sonra Vüqar Yusifovu çıxarmağa getdik. Elə bu vaxt yenə də bizim tərəfə mərmi düşdü. Torpağın toz-dumanı çəkiləndən sonra, baxdım ki, Nurlan yoxdu. Elə bu vaxt yenə də bizim tərəfə mərmi düşdü. Onun yıxıldığı istiqamətə qaçdım. Qardaşım yaralanmışdı. Fikirləşdim ki, üstümdəki tibbi ləvazimatla ona yardım edə bilərəm... Mən Nurlana çatanda, hələ canını tapşırmamışdı... Onu qollarımın arasına aldım... 30 saniyədən sonra qardaşım şəhid oldu..."**

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən İntiqam Əsgərliyə ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı adı verildi. Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının giziri olan İntiqam Əsgərli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. 9 noyabr 2020-ci ildə Şuşa istiqamətində gedən döyüşlərdə, döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycan ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən İntiqam Əsgərli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən İntiqam Əsgərli ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif olunudu.

Masallı şəhərinin mərkəzində İntiqam Əsgərlinin adına küçə var.

**İntiqam ailəli idi, iki övladı, Nur və İntiqam Vətənə yadigar qalıb...**

**Ə.ŞÜKÜROV**

Azad Azərbaycan.- 2021.- 19 avqust. S. 5.